# «Əmək yarmarkalarının təşkili və keçirilməsinin əhəmiyyəti» mövzusunda «dəyirmi masa» keçirilmişdir

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin təsdiq etdiyi qrafikə əsasən, rayon məşğulluq mərkəzinin təşkilatçılığı ilə "Əmək yarmarkalarının təşkili və keçirilməsinin əhəmiyyəti" mövzusunda "dəyirmi masa" təşkil olunmuşdur. Qəbələ Mədəniyyət Mərkəzində keçirilən toplantını məşğulluq mərkəzinin direktoru Elxan Səlimov açaraq ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycanın sosial-iqtisadi inkişafının yüksəlişi istiqamətində həyata keçirdiyi misilsiz xidmətlərindən danışmışdır. O, ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi və yorulmaz fəaliyyəti nəticəsində, iqtisadiyyatın dayanıqlı inkişafı üçün ölkədə sənaye potensialının artırılması, kənd təsərrüfatının inkişaf etdirilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və məşğulluğunun təmin olunması ilə bağlı çox əhəmiyyətli qərarların qəbul olunduğunu diqqətə çatdırmışdır. Elxan Səlimov dövlətin məşğulluq siyasətinin uğurla həyata keçirilməsində əmək yarmarkalarının təşkili və keçirilməsinin əhəmiyyətindən danışaraq qeyd etmişdir ki, bu işdə rayonda fəaliyyət göstərən bütün müəssisə və təşkilatlar daha fəal iştirak etməlidirlər.



Qeyd olunmuşdur ki, əmək yarmarkaları işsiz və işaxtaran vətəndaşların münasib işlə təmin olunmasında, eyni zamanda işə götürənlərin qısa vaxt ərzində ixtisaslı işçi qüvvəsinə olan tələbatının ödənilməsində böyük rol oynayır. Toplantıda çıxış edən rayon icra hakimiyyətinin nümayəndəsi Pərvin Məmmədov, DİİHİXİ-nin rayon komitəsinin sədri Fərman Hacıyev, təhsil şöbəsi müdirinin müavini İxtiyar Hüseynov sosial tərəfdaşlığın əhəmiyyətindən, bu istiqamətdə əhalinin məlumatlandırılması və təklif olunan vakansiyalar haqqında müntəzəm informasiya almaq imkanlarının genişləndirilməsi üçün yaradılmış vahid məlumat bazasının aktuallığından söz açmışlar. Çıxış edənlər bildirmişlər ki, işsiz vətəndaşların işlə təmin olunması və onların peşə hazırlığı məsələləri dövlətin diqqət mərkəzində saxlanılır. Tədbirdə iştirakçıları maraqlandıran məsələlərlə bağlı verilən suallar cavablandırılmışdır.

Toplantını Qəbələ Rayon Məşğulluq Mərkəzinin direktoru Elxan Səlimov yekunlaşdırmışdır.

✍ **Aslan CƏLİLOV.**
**Səhrab Umuyev.**

*3 dekabr Ümumdünya Əlillər Günüdür*

# Onlara hamı qayğı göstərməlidir

***Əlillər daha çox sosial müdafiəyə, mənəvi dəstəyə ehtiyacı olan insanlardır. Dünyada əlillərin probleminin həllinə kömək etmək, əlilliyi olan bütün insanların hüquqlarını qorumaq məqsədilə bir sıra mühüm tədbirlər həyata keçirilir. Belə tədbirlərin ən mühümü 1992-ci il oktyabrın 14-də BMT Baş Məclisinin dekabrın 3-nü «Əlilliyi olan insanların Beynəlxalq Günü» kimi qeyd olunması haqqında Bəyannamə qəbul etməsidir.***

Respublikamızda da xeyli sayda əlillər vardır ki, dövlət onların sosial müdafiəsinə xüsusi qayğı və diqqətlə yanaşır, ehtiyaclarını öyrənir, lazımi köməklik göstərir. Əlillər mənzil, maşın, əlil arabası ilə təmin olunur, müalicə üçün sanatoriya və müalicə mərkəzlərinə, artopedik bərpa mərkəzlərinə göndərilirlər.

Əlillərin cəmiyyətə inteqrasiya olunması məqsədilə onların iştirakı ilə müxtəlif tədbirlər—bədii yaradıcılıq müsabiqələri, sərgilər, idman yarışları keçirilir.

Son illər rayonumuzda da Beynəlxalq Əlillər Günü müntəzəm olaraq keçirilir.

DSMF Qəbələ Rayon Şöbəsi tərəfindən 3 minə yaxın əlilə pensiya, 2 minə yaxın əlil və sağlamlıq imkanları məhdud uşaqlara isə sosial müavinət verilir.

3 dekabr Beynəlxalq Əlillər Günü münasibətilə imkansız əlillərə maddi yardım edilir, sanatoriya və kurortlara müalicəyə göndərilir, onlara hər cür səhiyyə xidmətləri göstərilir.

✍ **Nərgiz ABDURƏHİMOVA,**
**DSMF Qəbələ Rayon Şöbəsi sosial xidmət sektorunun müdiri.**

# Seminar-müşavirə keçirilmişdir

Bu günlərdə Qəbələ Mədəniyyət Mərkəzində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı ilə birgə hazırladıqları «Dayaq» Mentorluq layihəsi əsasında seminar-müşavirə keçirilmişdir.

Seminar-müşavirədə bələdiyyə qurumlarının qadın rəhbərləri, bələdiyyələrə üzv seçilmiş qadınlar iştirak etmişlər.

Seminar-müşavirəni giriş sözü ilə rayon təhsil şöbəsi metodkabinetinin müdiri Arifə Bayramova açmışdır. O, «Dayaq» Mentorluq layihəsinin əsas məqsədi barədə çıxış etmək üçün Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatının nümayəndəsi Fidan Qasımovaya söz vermişdir. Fidan Qasımova çıxışında qeyd etmişdir ki, «Dayaq» Mentorluq layihəsinin əsas məqsədi qadınların yerli ictimai həyatda iştirakını gücləndirmək və eləcə də yerlərdə daha çox gender yönümlü idarəetməni təmin etməkdir. O, çıxışında proqram çərçivəsində yerli özünüidarəetmədə qadın liderliyinin gücləndirilməsi istiqamətində müxtəlif tədbirlərin bələdiyyəyə üzv qadınlar tərəfindən uğurla həyata keçirildiyini vurğulamış, qadınların bələdiyyə idarəetməsində rolunun gücləndirilməsi istiqamətində peşəkar layihələrin işlənib hazırlanmasına istiqamət verən praktik tövsiyələrdən ibarət «Fəal ol» təlimat kitabçasının nəşr edildiyini söyləmişdir.

Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatının hazırladığı səmərəli ünsiyyət metodiki vəsaiti bələdiyyələrə üzv seçilmiş qadınlar, xüsusilə rəhbər vəzifələrdə olan qadınlar üçün ünsiyyət bacarıqlarının artırılmasına, özlərini təsdiq etmələrinə, eyni zamanda düzgün qərarların qəbul edilməsinə töhfə verəcəyini qeyd etmişdir.

Sonra seminar-müşavirədə iştirak edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Regional Məsələlərlə İş Şöbəsinin böyük məsləhətçisi Pərvanə Əsgərzadə çıxış edərək son illərdə ölkədə qadınların seçkili orqanlarda iştirakı və onların qərar qəbul etmədə, eləcə də hakimiyyət orqanlarında rolunun getdikcə daha da artmasının müşahidə olunduğunu demişdir. O, qeyd etmişdir ki, əgər 1990-cı ildə Azərbaycan Respublikası Milli Məclisindəki deputatların 4,3 faizini, 2000-ci ildə 10,7 faizi qadınlar idisə, bu gün parlamentdə qadınlar 16 faiz təşkil edir. Bələdiyyə üzvü seçilmiş qadınların sayı əvvəlki bələdiyyə seçkilərilə müqayisədə 6 dəfə artaraq 2014-cü ildə 35 faizə çatmışdır. Bütün bu göstəricilər qadınlarımızın fəallığının artmasının bariz nümunəsidir.

Seminar-müşavirəni Fidan Qasımova yekunlaşdırmışdır.

***«Qəbələ».***

# 2016-cı ilin yanvar-sentyabr aylarında Qəbələ rayonunun sənaye müəssisələrinin işinin əsas göstəriciləri haqqında məlumat

2016-cı ilin yanvar-sentyabr aylarında sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 18.049,4 min manat təşkil etmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 13,5 faiz və ya 2.152,6 min manat çox məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir.Sənaye məhsulunun 3,3 faizi mədənçıxarma, 77,5 faizi emal, 16,2 faizi elektrik enerjisi və qaz, 3 faizi isə su təchizatı, bölmələrində olmuşdur.

Özəl bölmədə istehsalın həcmi sənaye məhsulunun 81,0 faizini təşkil etmişdir. Ümumi istehsalın 81,0 faizi sənaye mallarının (əmtəələrin) istehsalı, 19,0 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

**Mədəncıxarma sənayesi**

Mədəncıxarma bölməsində malların yüklnməsi və xidmətlərin göstərilməsinin həsmi 591,4 min manat olmaqla əvvəlki ilin müvafiq dövrünün səviyyəsindən 38,7 faiz az olmuşdur.

**Emal sənayesi**

Qida məhsullarının istehsalı müəssisələri tərəfindən 13.987,8 min manat həcmində məhsul istehsal edilmiş, əvvəlki ilin yanvar-sentyabr ayları ilə müqayisədə emal məhsulların istehsalında 21,7 faiz və ya 2.492,9 min manat artım müşahidə olunmuşdur.

Maşın və avadanlıqların istehsalı müəssisələri tərəfindən 108,17 min manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin yanvar-sentyabr ayları ilə müqayisədə maşın və avadanlıqların istehsalında 89,5 faiz az müşahidə olunmuşdur.

**Elektrik enerjisi və qaz təchizatı, su təchizatı, tullantıların təmizlənməsi bölmələri**

Elektrik enerjisi, qaz və su təchizatı müəssisələri tərəfindən doqquz ay ərzində 3.470,2 min manat həcmində xidmətlər göstərilmişdir. Əvvəlki ilin yanvar-sentyabr ayları ilə müqayisədə 0,9 faizlik artma müşahidə olunmuşdur.

2016-cı ilin yanvar-sentyabr aylarında rayonun sənaye sahələrində çalışan muzdlu işçilərin sayı əvvəlki illə müqayisədə 15,2 faiz artaraq 1278 nəfər təşkil etmiş, onların orta aylıq əmək haqqı 340 manat olmuşdur. İşçilərin 25 nəfəri mədənçıxarma, 694 nəfəri emal, 352 nəfəri elektrik enerjisi, qaz təchizatı, 207 nəfəri isə su təchizatı bölmələrində cəmləşmişdir.

**Rayon statistika idarəsi.**